Həkim-psixiatr
**Gülsərən Budayıcıoğlu**

# KRAL YENİLƏRSƏ

Tərcüməçi:
Lalə Rəhmanova

qanun nəşriyyatı

Psikiyatrist Dr.
**Gülseren Budayıcıoğlu**

# KRAL KAYBEDERSE

Bütün qəlblərin fatehi, qadınların yenilməz hakimi...

Bəs bütün savaşlar mütləq kralın qalibiyyəti ilə bitəcəkmi?

Eşqbazlıqda özünü mahir zənn edən Kənan adlı yaraşıqlı, özünəheyran və əhlikef birinin uşaqlığından yetkinliyinədək bütün həyatı burada əks olunur.

Bütün qadınların ətrafında pərvanə olan bu adam yıxılmaz zənn etdiyi eqosunu bir göz qırpımında yerlə yeksan halda görür. Əxlaqdan kənar həyat tərzi ilə oxucularda elə ilk səhifələrdən nifrət oyadan Kənan obrazının bütün davranışlarının altında dəhşətli səbəblər var. Bunlar üzə çıxanda, bəlkə də, ittiham etməkdə tələsməyin. Çünki bir az sonra yanıldığınızı görəcəksiniz.

Tanınmış psixiatr və yazıçı Gülsərən Budayıcıoğlunun real həyat hadisələrinə əsaslanaraq qələmə aldığı "Kral yenilərsə" romanı özünü zirvədə sanan bir ovçunun öz ovu üzündən birdən-birə uçurumun dibinə düşdüyünü heyrətamiz şəkildə göstərir.

**Gülseren Budayıcıoğlu** **KRAL KAYBEDERSE**
**Gülsərən Budayıcıoğlu** **KRAL YENİLƏRSƏ**
Bakı, Qanun nəşriyyatı, 2024, 432 səh.

Janr: bədii ədəbiyyat, roman
Yaş qrupu: 16+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 07.10.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Lalə Rəhmanova |
| Redaktor: | Dürdanə Ramazanlı |
| Korrektorlar: | Ayxan Ayvaz, Əyyar Tahir |
| Texniki redaktor: | Xəyalə Əhmədova |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-577-50-1

© Qanun Nəşriyyatı, 2024
© Gülseren Budayıcıoğlu © Kalem Literary Agency

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının Qanununa ziddir.

*Həyatın içində məni heç vaxt tək qoymayan,*
*sevgi və səmimiyyətləri ilə daim yanımda olan*
*ən qiymətli varlıqlarım Yağmur və Həsənə*

## 1

Gənc kişi tələm-tələsik zəngi bitirib üz-gözünü turşudaraq ayağa qalxdı. Əli ilə "Lənət olsun!" deyirmiş kimi bir işarə etdikdən sonra birlikdə kart oynadığı dostlarının heyrət və daha çox qəzəb dolu baxışlarını görməmək üçün başını geri çevirərək kükrəyirmiş kimi ofisianta sələndi:

– Hüseyn, paltomu gətir, gedirəm!

Dostları əllərində qalan kartları nə edəcəklərini bilməyərək duruxub qaldılar. Heç qumarı da bu cür yarıda qoyub gedərlər?! Hər şeyin bir yol-yolağı var. Sonra adama, "Götürüb qaçdı" deyərlər. Kişi olan kəs də heç arvad sözünə görə dostlarını satar? Bir deyil, iki deyil... Neçənci dəfədir daha... Buna baxmayaraq, yenə də onun əli yaxşı gətirir. Bir də deyirlər ki, "Sevgidə qazananın qumarda bəxti olmaz". Hamısı yalandır... Bu adamın həm sevgidə bəxti gətirir, həm də qumarda.

Aralarında ən cüssəli olanı əlindəki kartları masanın üzərinə qeyzlə səpələyib oturduğu stulu cırıldadaraq ayağa qalxdı. Əli ilə pencəyinin yaxasını geri atdıqdan sonra başını sağa-sola yelləyib ürəyində "lənət sənə kor şeytan" deyirmiş kimi ora-bura vurnuxdu. Qanı yaman qaralmışdı. O gedəndə həm cərgə pozulurdu, həm də pulların çoxu onun qarşısında olduğundan daha oyunun dadı-duzu qalmırdı. Bir-iki dəfə yüksək səslə bo-

ğazını arıtladıqdan sonra Kənana sarı çevrilib deyinməyə başladı:

– Qardaş, bu neçəncidir artıq?! Bir də səninlə bu masada otursam, betər olum! Bu qadından yaxanı qurtara bilmədin də! Qadın da bir qadın ola... Sənə neçə dəfə dedik ki, əl çək ondan. Belə getsə, başını yaman bəlaya salacaqsan. Yəni görmürsənmi, səni necə əsir edib? Bu sürtükdən çəkdiklərini heç evdəki arvadından çəkməmisən. Axı belə münasibətləri bu qədər uzatmazlar, bir müddət sonra kəsib atarlar. Eşidən də elə bilər ki, ömründə heç qadın görməmisən.

– Sən Allah, bəsdir, Semih. Onsuz da, ürəyim sıxılır. Sən də bir yandan hamının yanında danışıb lap qanımı qaraltma.

– Nə qanını qaraltmaq ey... Oturandan bəri telefon bir dəfə də susmadı! Bilmədik də bu qadın axı nə istəyir... Bir halda ki, bu qədər qiymətlidir, ondan bu qədər qorxursan, bir də bizimlə bu masa arxasında oturma. Uşaq oyuncağı deyil ki bu! Oturmuşuq burada bir az kef çəkirik, bir az da oyun oynayırıq. Bizim də qanımızı qaraldırsan. Daha cavan da deyilik. Hamımız bu qələtlərdən eləmişik, ancaq vaxtında başını buraxdıq. Maşallah, daha əlindən gəlib-keçməyən qadın qalmayıb, ancaq hələ də bu işlərdən bezib-usanmırsan.

Semih düz deyirdi. Yenə də dostlarının yanında üzüqara olmuşdu. Kaş bu gecə heç bu kluba gəlməyəydi. Amma işdən çıxıb birbaşa evə gedəsi adam da deyildi o. Üstəlik, bu cür düzgün həyata alışmamışdı. İllərdir hər gün işdən çıxdıqdan sonra bu klubda toplaşır, yeyib-içir, qızdan, qadından, arabir də ölkə gündəmindən, işdən-gücdən danışır, sonra da masa arxasına keçib qumar oynayırdılar. Evə getmələri gecə yarısınadək uzanır, arabir aralarından biri və ya bir neçəsi öz xanımından yaxasını qurtara bilmədiyi üçün gələ bilmirdi.

Kənan klubun daimi üzvlərindən idi. Nə olur-olsun, işdən çıxdıqdan sonra burada bir əl qumar oynamadan evə getməzdi. Lakin son günlərdə bu qadın tamamilə başını itirməsinə səbəb olmuşdu. Evə gedəndə ona kral kimi qulluq etməsinə, bir dediyini iki etməməyinə, bir geyşa[1] kimi onun hər cür xidmətində durmağına baxmayaraq, son günlər evə gec gəlməsi üçün təkid edir, hər dəfə onu evə tez gətirməyin bir yolunu tapırdı. Bu gün də "Yoxsa, ad günümü unutmusan?" deyəndə Kənanın tələm-tələsik masadan qalxmaqdan başqa çarəsi qalmamışdı. Fadinin ad gününü necə unutmuşdu axı...

Bu qadınları həm çox sevir, həm də bitib-tükənməyən şıltaqlıqlarına qətiyyən tab gətirə bilmirdi. Ad günü, tanışlıq günü, Yeni il, o da olmadı, bayram deyə-deyə bu mərasimlər bitib-tükənmək bilmirdi. Baxmayaraq, başqa kişilərdən fərqli olaraq o, bu cür oyunlara alət olmur, hər necə olsa da bir yol tapıb aradan çıxırdı, ancaq son zamanlar aralarında heç cür öhdəsindən gələ bilmədiyi bir gərginlik hökm sürürdü. Ən azından ad günündə yanında olsa, yaxşı olardı.

– Yaxşı-yaxşı, nə desəniz haqlısınız, amma bu gün Fadinin ad günü imiş. Tamam yadımdan çıxıb. Əslində, bu gün buraya gəlməli deyildim heç. Ancaq beynim dolub, başım işə-gücə qarışıb, yadımdan çıxıb, qardaş.

Masa ətrafındakılar bir yandan gizli-gizli gülür, bir yandan da deyinirdilər. Sən həm özünə məşuqə tut, həm də qadının ad gününü bu şəkildə unut! Beləsi harada görünüb ki?!

– Yenə də fərasətli adamsan, – Sami dedi, – biz olsaq, arvadlar dərhal bizi qapının ağzına qoyarlar. Bu qadınlara cadu edirsən? Hələ arvadını necə yola verdiyini anlamaq mümkün

[1] Geyşaların peşəsi xüsusi çay evlərində qonaqları şirin söhbətlərə cəlb etmək, musiqi alətlərində ifa edərək qonaqları əyləndirmək və onlara xüsusi ədalarla yemək-içmək paylamaqdan ibarətdir.

deyil. Yəni illərdir bu qadın heç nəyin fərqində deyil? Allah bilir, heç gecələr də evə getmirsən.

– Siz Allah, mənə baş qoşmayın, öz işinizlə məşğul olun. Götürün, bu markaları da öz aranızda paylayın. Pul-mul istəmirəm.

Kənan markaları masanın ortasına sarı itələdikdən sonra ofisiantın gətirdiyi süd rəngli, dəbli paltonu əyninə geyindi, qara, dəri çantasını da əlinə alıb sürətlə otaqdan çıxdı.

Klubun olduqca böyük VİP zalında qonaqlıq təşkil olunmuşdu. Hər biri ya dövlət müəssisəsində işləyən məmur, ya da böyük iş adamı idi. İllərdir heç ayrılmamışdılar. Yaxşı işləyib yaxşı da pul qazanırdılar. Bu qədər işlədikdən sonra bir az kef çəkmək onların da haqqı idi. Üstəlik, daha o qədər gənc də sayılmırdılar, qırx yaşlarını çoxdan keçmişdilər. Oğul-uşaq böyümüş, hamısı universitet tələbəsi olmuşdu. Heç birinin həyat yoldaşı işləmirdi. Hərçənd, onlar da universitet məzunları idi, ancaq həm ərləri yaxşı pul qazanır, həm də uşaqların təlaşı, həyəcanı analarının öhdəsinə düşürdü. Bu dövrdə çoxlu pul qazanmaq asan deyildi. Ya Kənan kimi dağı-daşı gəzməli, ya da gecə yarısınadək dövlətə xidmət etməli idin. Kiçik məmurlar iş saatını başa vuran kimi çıxıb gedirdilər, böyük məmurlar üçünsə saat anlayışı yox idi. Elə gün olurdu ki, iclaslar gecə yarısınadək davam edirdi.

Bu klub onlar üçün bir sığınacaq halına gəlmişdi. Ayrı bir otağa girib-çıxdıqlarına görə onları heç kim görmür, beləliklə, qəzetlərə xəbər mövzusu olmaqdan xilas olaraq gecə yarısınadək könülləri istəyən qədər yeyib-içir, söhbət edir, sonra da qızğın qumar oyununa başlayırdılar. Vaxtında bəzisi nazir, bəzisi müşavir, bəzisi də şöbə müdiri vəzifəsində xidmət etmişdi. Hazırda aralarında nazir vəzifəsində işləyən olmasa da, hamısı hələ də yüksək mövqe sahibi idilər. Aralarına əsla yeni birini

almır, onlara qulluq edən ofisiantların belə dəyişməsinə icazə vermirdilər. Onlar da bu diqqətin qarşılığını artıqlaması ilə ödəyir, hər gün ofisiantlara xeyli miqdarda bəxşiş verir, dövlət orqanlarındakı işlərdə hər birinə kömək edirdilər.

Kənan da əvvəllər dövlət strukturunda işləyirdi. Orada qalsa idi, indi o da hansısa yüksək mərtəbəyə qalxmış olardı. Ancaq Kənan çox iddialı idi, pulu çox sevirdi. Qısa müddətdə çox pul qazanmaq istəyi səbəbindən illər öncə dövlət işindən uzaqlaşmışdı. İnşaat mühəndisliyini oxumuş, tezbazar özünə bir şirkət qurmuş, keçmiş əlaqələrindən də istifadə edərək dövlətdən yavaş-yavaş işlər almağa başlamışdı. Bir müddət sonra şirkət böyümüş, işçilərinin sayı artmış və hazırda nəhəng bir inşaat firmasına çevrilmişdi. Bu günlərə gəlmək qətiyyən asan olmamışdı. Türkiyənin müxtəlif əyalətlərində tikinti meydançaları qurmuş, xüsusən, cavan vaxtlarında ev-eşik üzünə həsrət qalaraq çoxlu səyahət etməli olmuşdu. Əslində, Kənanın bu səyahətlərdən heç bir şikayəti yox idi. Onsuz da, müntəzəm ev həyatını qəti sevmir, daim macəra axtarışında olur, xüsusilə də, qadınların baş rolda olduqları macəraları çox bəyənirdi.

Bu iş səyahətləri sayəsində heç kimə hesabat vermədən ürəyi istəyən kimi yaşayır, həyatından qadınlar heç əskik olmurdu. O, bir qadınla ömrü başa vuracaq insan deyildi. Onsuz da, qadınlar özləri Kənanın qollarına atılırdılar. Haqsız da sayılmazdılar. Bu ölkədə Kənan qədər yaraşıqlı artist belə tapılmazdı. Sanki Allah onu yaradarkən xüsusi diqqətlə yanaşmışdı. Uca boyu, atletik bədən quruluşu, yaşıl gözləri, inanılmaz incə burnu azmış kimi, səsi də çox valehedici idi. O da bütün bunların fərqində olduğundan qadınların diqqətini cəlb etmək üçün heç nədən çəkinməzdi.

Uşaq vaxtından bəri başqalarından fərqli bir işığı var idi. Daim öz yaşıdlarından daha gözəgəlimli, daha parlaq və daha

göstərişli idi. Anası ona, az qala, sitayiş edir, yekə kişi olmasına baxmayaraq, həmişə "Mənim gözəl, yaraşıqlı oğlum, bütün qadınlar sənə qurban olsun" deyərək əzizləyərdi. Müstəsna olmaq, fərqlənmək sanki onun taleyinə yazılmışdı. Bir halda ki o, bu qədər özəl, hamıdan fərqli, daha doğrusu, üstün biri idi, heç şübhəsiz, ətrafındakı insanlar da ona hər zaman hörmət və məhəbbətlə yanaşacaqdı.

Pilləkəni atıla-atıla düşərkən, əslində, qanı yaman qara idi. Belə xüsusi günləri heç vaxt sevə bilməmişdi. Üstəlik, hədiyyə-filan da almamışdı. İndi həm bu günü unutduğuna, həm də hədiyyə almadığına görə bir xeyli bəhanə uydurmalı olacaqdı. Çölə çıxmazdan öncə arvadına zəng vursa, yaxşı olardı. Tələsik telefonda nömrəni yığdı. İki çağırışdan sonra telefona cavab verildi:

– Nə var, nə yox, Handan?

– Salam, Kənan, yaxşıyam. Sən necəsən? Gəlmisən?

– Yaxşıyam, yaxşıyam. Gəlmişəm, amma...

– Bu vaxt zəng elədiyinə görə, demək, yenə də evə gəlməyəcəksən?

– Demə... Özün bilirsən, yaman da yorulmuşam. Yoldan indicə gəlmişəm. Uşaqlara salam verib çıxırdım ki, Samsundakı tikintidən zəng elədilər. Ciddi bir problem var imiş.

– Nə problemi?

– İndi uzun-uzadı danışa bilməyəcəyəm sənə. Deyəsən, bir qəza baş verib. Dərhal getməliyəm.

– Heç olmasa, evə baş çək, yuyun, pal-paltarını...

– Yox-yox, bunlara vaxtım yoxdur. Mən sənə sonra yenə də zəng edərəm. Sən məndən nigaran qalma, kefində ol.

– Belə də olmaz ki... Nə isə... Yaxşı... Sonra görüşərik.

Hər dəfə evə zəng edib bir bəhanə uydurmaq ona ağır gəlirdi.